**ABŞ Azərbaycana 115 milyon dollar ayırıb**

Yazan
24.11.15 20:45



1993-cü ildən ABŞ Azərbaycana humanitar yardım layihələri və qaçqınların yaşayış səviyyəsini artırmaq üçün 115 milyon dollar ayırıb.

Dalga Tv-nin Trend-ə istinadən məlumatına görə, bunu Bakıda jurnalistlərə ABŞ Dövlət Departamentinin Avropa və Avrasiyaya yardım üzrə koordinator Alina Romanovski deyib.

O, qeyd edib ki, 1992-ci ildən ümumilikdə Azərbaycana ayrılan ABŞ yardımları 1.1 milyard dollar təşkil edib: "ABŞ-ın Azərbaycana pul olmayan, əşya, geyim, qida kimi yardımı 220 milyon dollar dəyərində qiymətləndirilir".

A.Romanovski əlavə edib ki, ABŞ 1992-ci ildən ANAMA-ya 30 milyon dollar ayırıb: "Bu məbləğ

sayəsində 500 minə yaxın mina və partlamamış hərbi sursat təmizlənib. ABŞ-ın Azərbaycana ayırdığı iqtisadi yardımların əsas məqsədi Azərbaycan hökumətinin qarşıya qoyduğu məqsədlərə çatmaqda yardım etmək, iqtisadiyyatı diversifikasiya etmək və özəl sektoru inkişaf etdirməyə yönəlib. USAID-in Azərbaycanda kənd təsərrüfatı sahəsində həyata keçirdiyi fəaliyyət nəticəsində irəliləyiş əldə olunub, nar istehsalı 57, digər istehsal isə 12 faiz artıb. Fermerlərə yardım nəticəsində nar ixracı 55, qoz ixracı isə 68 faiz artıb".

O, əlavə edib ki, ABŞ Azərbaycana demokratiya və insan haqları sahəsində də yardımlar edib: "Bu çərçivədə əyalətlərdə 97 icma mərkəzi yaradılıb. Bu mərkəzlər insanların yerli hakimiyyət orqanları ilə münasibətlərinin formalaşması və dialoqu üçün 39 layihə həyata keçirib".